*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 298-304* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.298*

**Sənətşünaslıq**

# TƏSVİRİ SƏNƏT VƏ ELM. XX SƏRGİ

**Ərtegin Salamzadə**
AMEA-nın müxbir üzvü
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: ertegin.salamzade@mail.ru

**Xəzər Zeynalov**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: khazar.zeynalov@yandex.ru

**Annotasiya.** Məqalədə Azərbaycan MEA-nın əməkdaşlarının təsviri sənət sərgilərinin keçirilməsi tarixinə nəzər salınmışdır. 2023-cü ilin iyununda keçirilmiş XX yubiley sərgisi daha ətraflı işıqlandırılır. Qeyd edilir ki, sərgilərdə rəngkarlıq və qrafikanın demək olar ki, bütün janrlarında – portret, natürmort, mənzərə, çoxfiqurlu kompozisiya əsərləri və hətta batal janrında tablolar nümayiş etdirilib. Seyrçilərin diqqətinə həm də dekorativ-tətbiqi sənətin bəzi növlərinə və instolyasiya, kompüter qrafikası, kollaj kimi müasir incəsənət istiqamətlərinə aid əsərlər təqdim edilmişdir. Sərgilərin tematik məzmunu da çox müxtəlif olmuşdur. Sərgilərin təxminən 40 iştirakçısının işlərinin təhlili göstərir ki, elmi işçilərin müəllifi olduğu əsərlərin təsvir dili özünəməxsus xüsusiyyətlərə malikdir. Alim-rəssamların əsərləri yaradıcılıq tipologiyası baxımından da fərqlənir. Onların hamısı yaradıcılığın harmonik, yaxud rasional tipinə aiddir. Bu, elmi təfəkkürün bədii təfəkkürə təsirini əks etdirir.
**Açar sözlər:** incəsənətin növləri və janrları, təsvir dili, yaradıcılıq tipologiyası, sərgi, elmi və bədii təfəkkür

**Məqalə tarixçəsi:** göndərilib – 26.10.2023; qəbul edilib – 07.11.2023

# FINE ARTS AND SCIENCE. THE 20TH EXHIBITION

**Artegin Salamzadeh**
Correspondent Member of ANAS
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: ertegin.salamzade@mail.ru

**Khazar Zeynalov**
Doctor of Philosophy in Arts
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: khazar.zeynalov@yandex.ru

**Abstract.** The article deals with the history of holding fine art exhibitions by researchers of the Azerbaijan NAS. The 20th anniversary exhibition, which was held in June 2023, is emphasized in more detail. It is mentioned that works almost in all genres of painting and graphics – portrait, still life, landscape, multi-figure composition and even paintings in the battle genre were exhibited at the exhibitions. The audience was also presented works related to some types of decorative-applied art and modern art directions such as installation, computer graphics and collage. The thematic content of the exhibitions was also very diverse. The analysis of almost 40 participants' works of the exhibitions shows that the descriptive language of works authored by researchers has its own specific characteristics. The works of scientists-artists also differ in terms of creative typology. All of them belong to the harmonic or rational type of creativity. This reflects the influence of scientific thinking on artistic thinking.
**Keywords:** types and genres of art, descriptive language, creative typology, exhibition, scientific and artistic thinking

**Article history:** received – 26.10.2023; accepted − 07.11.2023

## Giriş / *Introduction*

Azərbaycan MEA-nın əməkdaşlarının təsviri sənət sərgilərinin keçirilməsi ənənəsinin əsası 2014-cü ilin noyabrında, I Elm Festivalının start götürdüyü zaman qoyulmuşdur. Bu təşəbbüs akademik İsa Həbibbəyliyə məxsusdur. O zamandan bəri Memarlıq və İncəsənət İnstitutu MEA-nın sərgi fəaliyyəti sahəsində məsul təşkilat statusu almışdır. Artıq 9 il keçib və iyun ayının 5-də XX yubiley sərgisinin açılışı keçirilmişdir. Dahi siyasi xadim, Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 100 illiyində öz yaradıcılıq nailiyyətlərini nümayiş etdirmək sərginin həm iştirakçıları, həm də təşkilatçıları üçün böyük şərəfdir.

## Əsas hissə / *Main Part*

Ötən dövr ərzində sərgilərdə təsviri sənətin bütün növlərinə, həmçinin dekorativ-tətbiqi sənətin bəzi – bədii keramika, ağac üzərində yonma və s. kimi növlərinə aid olan əsərlər nümayiş etdirilmişdir. Müəlliflər rəngkarlıq və qrafikanın praktik olaraq bütün janrlarında – portret, natürmort, mənzərə, çoxfiqurlu kompozisiya əsərləri və hətta batal janrında tablolar sərgiləmişlər. Seyrçilərin həm də kompüter qrafikası, kollaj, instalyasiya və bəzi qarışıq texnika, misal üçün, rəngkarlıq və heykəltəraşlığın bir əsərdə kombinə edilməsi kimi müasir sənət növləri ilə tanışlıq imkanı olmuşdur. Son sərgidə digər əsərlərlə yanaşı, həm də incəsənətin ekzotik növlərindən olan ikebana nümayiş etdirilmişdir.

Sərgilərin tematik məzmunu çox müxtəlif olmuşdur. Onlar həm bayram, yubiley hadisələrinə, həm də faciəli, qan yaddaşımızda hifz olunan tarixlərə həsr edilmişdir. Sonunculardan Azərbaycan xalqına qarşı törədilmiş soyqırımına, konkret olaraq, Xocalı faciəsinə həsr olunmuş sərgiləri vurğulamaq lazımdır. Bayram mövzusu Novruz bayramı və Beynəlxalq qadınlar günü, 2-ci Qarabağ müharibəsində böyük Zəfərin ildönümü ərəfəsində, həmçinin ölkəmizdə qeyd olunan Nizami ili və Şuşa ili münasibətilə keçirilmiş sərgilərlə təmsil olunur. Qeyd etmək vacibdir ki, bir neçə ekspozisiya "Fizika və lirika" mövzusunda təşkil olunmuş və həmin ad altında keçirilən konfranslar, o cümlədən Beynəlxalq konfranslar çərçivəsində təqdim edilmişdir.

Sərgilərin təşkil edilməsi işində ekspozisiyanın yerləşdiyi məkan, onun planlaşdırılması, giriş və çıxış yerləri, işıqlandırılma şəraiti və hətta iqlim rejimi böyük əhəmiyyətə malikdir. 2014-2023-cü illər ərzində təşkil edilmiş ekspozisiyaların məkanları bu tələblərə müxtəlif dərəcədə cavab vermişdir. Təsviri sənət sərgiləri Əsas korpusun, MEA-nın Rəyasət Heyətinin, Mərkəzi Elmi Kitabxananın, Texnoparkın, Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun binalarında keçirilib. Xüsusi vurğulamaq lazımdır ki, iki dəfə ekspozisiya açıq səma altında – Mərdəkan qəsəbəsindəki Dendrologiya İnstitutunun ərazisində qurulub [2]. Qeyd etmək vacibdir ki, sadalanan bu obyektlər öz memarlıq üslublarına görə çox fərqlənirlər və bu, nümayiş etdirilən təsviri sənət əsərlərinin qavranılmasına təsir göstərməyə bilməzdi. Belə ki, MEA-nın Rəyasət Heyətinin binası (1908) Venesiya qotikası üslubunda tikilib və öz formaları ilə bir çox hallarda məşhur San-Marko meydanındakı Venesiya dojlarının sarayını xatırladır. MEA-nın Əsas korpusu görkəmli memar, akademik Mikayıl Hüseynov tərəfindən hələ sovet dövründə, 1950-ci illərin əvvəlində ucaldılıb və həmin dövrün üslub standartlarına cavab verir. MEA-nın Mərkəzi Kitabxanasının binası Bakının ultramüasir tikililərindən biridir və postmodernizm elementlərinə malik hay-tek üslubunun əlamətlərini özündə birləşdirir.

Nəhayət, 9 il ərzindəki sərgi fəaliyyətinin ümumi mənzərəsini yaratmaq üçün hansı akademik strukturların ekspozisiyaların daimi və ya müvəqqəti iştirakçıları olması barədə söz demək lazımdır. Sərgilərdə Memarlıq və İncəsənət İnstitutundan başqa, Əlyazmalar İnstitutunun, Tarix İnstitutunun, Arxeologiya və Antropologiya İnstitutunun, Fizika İnstitutunun, İnformasiya Texnologiyaları İnstitutunun nümayəndələri iştirak ediblər. Bu gün XX yubiley sərgisində Şərqşünaslıq İnstitutunun əməkdaşları da öz əsərlərini nümayiş etdirirlər.

MEA rəssamlarının XX sərgidə əsas nailiyyəti təşkil edilmiş yaradıcılıq prosesidir ki, onun gedişində ümumi kreativ potensial toplanmış, Akademiyanın elmi əməkdaşlarının düşüncəsinin bədii aspektləri aşkar olunmuş və cəmiyyətə nümayiş etdirilmişdir. Azərbaycan MEA-nın prezidenti, akademik İsa Həbibbəyli dəfələrlə qeyd etmişdir ki, "akademiya institutlarının əməkdaşları arasında bədii istedada malik çox adam vardır" [1, s.3]. Sərgilərin kataloqunun ön sözündə o vurğulamışdır ki, "iştirakçıların peşəkarlığı hər dəfə artıb çoxalır, onların əldə etdiyi bədii qabiliyyətlər artır" [1, s.23-24]. Həm də elmi əməkdaşların bədii yaradıcılığının öz xüsusiyyətləri vardır. Elmi əməkdaşların hər birinin bədii kredosu, ilk öncə, onların tədqiqatlarının problematikası və spesifikası ilə müəyyən edilir.

Misal üçün deyək ki, akademik Şamil Fətullayevin (1928-2021) rəsmləri onun elmi işinin əsas istiqaməti olan XIX əsr – XX əsrin əvvəlində Azərbaycan memarlığını əks etdirirdi. Fizika-riyaziyyat elmləri doktoru İmaməddin Əmiraslanovun kompozisiyalarının təsvir dili təsviri formaların fonsuz təşkili prinsipinə əsaslanır ki, bu da nəzəri cəhətdən MEA-nın müxbir üzvü Xudu Məmmədov tərəfindən kristallik strukturların öyrənilməsi nəticəsində təsvir edilmişdir (şəkil 4). Eyni tərzdə professor Elturan Avalovun gözəl qrafik vərəqələri həyata vəsiqə qazanıb. Tarixi binaların ilk eskiz işləmələri onun Şuşa şəhəri memarlığının tədqiqinin ilkin materialı olmuşdur. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Əliyevin tədqiqatları vizual formanın qavranılması problemlərinə həsr olunub, onun mənzərələrində isə biz müəllifin xüsusi bədii vasitələrlə plastik formanın informativliyini necə yüksəltdiyini görürük. Nəhayət, Heydər Əliyevin portretində qızılı və qara rənglərin

kəskin təzadı, yaradıcılıq üslubunun qrafik manerası və obrazın hədsiz ümumiləşdirilməsi gənc rəssam Rüxsarə Əlizadənin dizayn fakültəsinin məzunu olduğunu bir daha təsdiqləyir (şəkil 1).

Alimlərlə yanaşı, sərgi iştirakçıları arasında peşəkar bədii təhsilə malik olan müəlliflər vardır. Lakin bu halda da elmi təfəkkürün bədii təfəkkürə təsiri özünü büruzə verir. Burada Tarix İnstitutunun əməkdaşı, rəngkar Camaləddin İsmayılovun yaradıcılığını ən yaxşı nümunə kimi göstərmək olar. Azərbaycan və bütövlükdə türk dünyası tarixinin müxtəlif mərhələlərinə həsr olunmuş əsərlər seriyası onun fırçasına məxsusdur. Rəssamın yaradıcılıq maraqları dairəsinə həm də müasir incəsənət üçün çox nadir olan batal janrı daxildir. Bununla əlaqədar "Malazgirt döyüşü" tablosunu xatırlamaq vacibdir (şəkil 2). Realistik təsvir metodu, tarixi detallara diqqət C.İsmayılova öz tablolarında təkcə uzaq keçmişin hadisələrini təcəssüm etdirməyə deyil, həm də 2020-ci ilin noyabrında Şuşanın azad edilməsinin inamlı qəhrəmanlıq epopeyasını yaratmağa imkan vermişdir. Heydər Əliyevin və onun ailə üzvlərinin kollektiv portretini rəngkarın yaradıcılığının həqiqi şah əsəri adlandırmaq olar. Burada C.İsmayılov özünü təkcə ailə telləri ilə bağlı olan deyil, həm də ruhən yaxın olan insanların kollektiv təsvirini yaratmış incə düşüncə tərzinə malik portretçi kimi göstərə bilmişdir.

Tarixi düşüncə, bədii obrazın həllinə elmi yanaşma şübhəsiz ki, Arxeologiya və Antropologiya İnstitutunda çalışan sənətşünaslıq üzrə fəlsəfə doktoru Aynurə Həşimovanın yaradıcılığı üçün də xarakterikdir. O, "Azərbaycan hökmdarları" kompozisiyasını yaratmışdır ki, bunu da müəyyən mənada ruhi həmmüasirlərin daha bir kollektiv portreti adlandırmaq olar. Bu tabloda Atropatena, Qafqaz Albaniyası, Səfəvi dövləti, müasir Azərbaycan rəhbərləri öz zövcələri ilə təsvir olunub. Bununla da burada Azərbaycan ərazisində dövlət quruculuğunun varisliyi, etnomədəni, daha sonra isə milli dəyərlərin formalaşmasının tarixi prosesi barədə ideya ifadə olunmuşdur.

Bədii əsərlərdə tarixi hadisələrin öncədən duyulması fenomeni incəsənət tarixindən yaxşı məlumdur. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xəzər Zeynalovun əsərləri Qarabağ müharibəsinə, Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlığına həsr edilmişdir. Onun əsərlərinin qəhrəmanları 2016-cı ilin aprel döyüşlərindən Şuşanın azad edilməsinə qədər asan olmayan bir yol keçmişlər. X.Zeynalovun əsərlər seriyası "Aprel döyüşləri böyük qələbələrin müjdəçisidir!" plakatı ilə başlanır ki, burada hücuma keçən, bir əlində Azərbaycan bayrağı, o birisində isə avtomat tutmuş əsgər təsvir olunub. Nəzərdən keçirilən işlər seriyasının kulminasiyası hələ 2017-ci ildə, qalibiyyətli 44 günlük Vətən müharibəsindən üç il əvvəl yaradılmış "Şuşanın azad edilməsi" kompozisiyasıdır. Rəssam qədim Şuşanın qala divarları fonunda hücuma keçən Azərbaycan döyüşçüləri dəstəsini iri planda təsvir etmişdir. Əsər qələbə pafosu, yüksək qəhrəmanlıq və rəşadət ab-havası ilə dolub-daşır.

Beləliklə, alim-rəssamlar XX yubiley sərgisinə zəngin peşəkar tutum, maraqlı nailiyyətlərlə gəlib çatmışlar. Bu ekspozisiyada ümumi bədii prosesə yeni yaradıcılıq axını qoşulub. Bu, Şərqşünaslıq İnstitutunun əməkdaşlarının işləridir. Ümumən on bir müəllif tərəfindən 14 əsər təqdim olunub. Pərvinə Əfəndinin işləri yüksək peşəkarlığı ilə seçilir. Biz, ilk növbədə, "Narlar" tablosunu nəzərdə tuturuq (şəkil 3). Azərbaycan rəngkarlığında nar təsviri geniş yayılıb və müəyyən mənada mədəniyyət, ənənə rəmzidir. Toğrul Nərimanbəyov, Oleq İbrahimov, Məlik Ağamalov və başqa bu kimi fırça ustalarının diqqətçəkən əsərlərində nar obrazı məhz bu cür təsvir edilir. Nar təsvir obyekti kimi natürmortlarda bundan qat-qat az çıxış edir. Lakin indiki halda P.Əfəndi narları təbiət obyekti kimi təsvir edir və bunu elə yüksək səviyyədə edir ki, tamaşaçını təkcə Azərbaycan rəssamlarını deyil, həm də Avropa sənətkarlarını xatırlamağa sövq eləyir.

Lalə Mikayılzadənin "Azərbaycan bayrağı" kompozisiyası işləmə texnikasına görə seçilir ki, burada ölkəmizin suverenliyinin rəmzinin həcmli təsviri əks olunub. Dövlət bayrağı bu vaxtadək xalq sənətkarları tərəfindən müxtəlif materiallardan düzəldilib. Məqalə müəllifləri ölkəmizin şəbəkə texnikasında, yəni rəngli şüşələr və birləşdirici ağac elementlərdən hazırlanmış bayrağını görmüşlər. Lakin ilk dəfədir

ki, Azərbaycanın Dövlət bayrağı L.Mikayılzadə tərəfindən "burma" mənasını verən "kvillinq" texnikasında düzəldilmişdir. Əlavə edək ki, ənənəvi kvillinqdə material kimi kağız burması işləndiyi halda, bu əsərdə yun burmalarından istifadə olunub.

Ümumiyyətlə, Şərqşünaslıq İnstitutundan olan həmkarlarımızın işləri həm janr, həm üslub, həm material işləmə texnikası baxımından müxtəlifliyi ilə fərqlənir. Onların arasında həm gözün adət etdiyi realistik, fiqurativ incəsənət nümunələri, həm avanqardizmə meyil edən işlər, həm də hətta impressionizmin təsiri altında yaradılmış əsərlər vardır. Burada həmçinin milli təsviri və dekorativ-tətbiqi sənət ənənələrinə istinad edən, ənənəvi motivlərdən, misal üçün, "buta" ornamentindən istifadə edən kompozisiyaları qeyd etmək lazımdır. Nəhayət, Gülnar Quliyevanın diqqətəlayiq həcm-fəza tipli maketini xatırlamaq yerinə düşər. Bu eksponat təkcə heykəltəraşlıq və rəngkarlığın yox, həm də memarlığın, dizaynın ifadə vasitələrini sintez edir.

## Nəticə / *Conclusion*

Azərbaycan MEA-nın sərgi fəaliyyətinin təhlili çox maraqlı bir nəticəyə gəlməyə imkan yaradır. Ən yeni tədqiqatlara görə, yaradıcılığın dörd tipi mövcuddur: rasional, irrasional, münaqişəli və harmonik. Onların hər biri yaradıcılıq prosesinin müəyyən bədii metodları və psixoloji xüsusiyyətləri ilə xarakterizə edilir. Bu tiplər əkslik, müxaliflik prinsipi üzrə cütlük təşkil edirlər: irrasional – rasional, münaqişəli – harmonik. Harmonik tipdə "ilham düşüncədən ayrılmazdır, şüur və şüuraltı arasında ziddiyyət yaranmır". "Belə yaradıcılıqda dünyanın rasional dərki aləti olan intellekt deyil, şüur fəaliyyət göstərir, burada irrasional başlanğıc dəlisovluğu yox, yüksək mənəviyyat səltənəti vardır" [3, s.128]. Ötüb keçən doqquz il ərzində təsviri sənət ekspozisiyalarında tamaşaçılara təqdim edilmiş əsərlərin əksəriyyəti məhz bu xarakteristikaya uyğun gəlir.

Elmi işçilərin bədii işlərinin müəyyən hissəsinin uyğun gəldiyi digər tip – rasional tipdir. Ona "hazırlıq mərhələsində əsərlərə işlənmiş rəsmlər, eskizlər, etüdlər" üzərində "elmi metodların tətbiqi... çoxpilləli struktur, işlə əlaqədar olan yaradıcı prosesin çoxfazalılığı" xasdır [3, s.126]. Lakin bu o demək deyil ki, yaradıcılığın rasional tipi çərçivəsində yaradılmış əsərlər nəticə etibarilə bir-birinə oxşamağa başlayır, necə deyərlər, standartlaşırlar. Əksinə, müəlliflərdən hər biri öz fərdi üslubu ilə yanaşı, həm də "idiolektə – danışanın təkraredilməz koduna" malikdir [4, s.85]. Başqa sözlə, hər sərgi yaradıcı fərdiliyin bir simfoniyasıdır.

## Ədəbiyyat / *References*


1. Alimlər-rəssamlar. Kataloq. – Bakı, 2017.
2. Salamzadə Ə.Ə. Açıq səma altında sərgi. // "Mədəniyyət" qəzeti, N 56 (1444), 2017.
3. Байрамов Т.Р. Традиция: типология искусства и диалог культур. – Баку, 2019.
4. Эко У. Отсутствующая структура. – СПб., 1998.

# ИЗОБРАЗИТЕЛЬНОЕ ИСКУССТВО И НАУКА. XX ВЫСТАВКА

**Эртегин Саламзаде**
Член-корреспондент НАНА
Институт архитектуры и искусства. Азербайджан.
E-mail: ertegin.salamzade@mail.ru

**Хазар Зейналов**
Доктор философии по искусствоведению
Институт архитектуры и искусства. Азербайджан.
E-mail: khazar.zeynalov@yandex.ru

**Резюме.** В статье рассматривается история проведения выставок изобразительного искусства сотрудников НАН Азербайджана. Наиболее подробно освещается XX юбилейная выставка, состоявшаяся в июне 2023 года. Отмечается, что на выставках экспонировались произведения почти всех жанров живописи и графики – портреты, натюрморты, пейзажи, многофигурные композиции и даже полотна батального жанра. Вниманию зрителей были представлены также работы некоторых видов декоративно-прикладного творчества и таких направлений современного искусства, как инсталляция, компьютерная графика, коллаж. Очень разнообразным было и тематическое содержание выставок. Анализ работ почти 40 участников выставок показал, что изобразительный язык произведений, авторами которых являются научные сотрудники, имеет свои определенные особенности. Работы ученых-художников отличаются и с точки зрения типологии творчества. Все они относятся к гармоническому или рассудочному типу творчества. Это свидетельствует о влиянии научного мышления на художественное.

**Ключевые слова:** виды и жанры искусства, изобразительный язык, типология творчества, выставка, научное и художественное мышление

## ŞƏKİLLƏR



1. Rüxsarə Əlizadə.
"Ümummilli lider". Kətan, akril, vektorial illüstrasiya. 2023.



2. Camaləddin İsmayılov. “Malazgirt döyüşü” (fraqment).
Kətan, yağlı boya. 2018.



3. Pərvinə Əfəndi. “Narlar”.
Kətan, yağlı boya. 2014.



4. İmaməddin Əmiraslanov. “Boz qurdlar”.
Fonsuz aperiodik qrafika. 2000-ci illər.